www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-17 (1821) 15 oktyabr 2025-ci il



## Azərbaycan cərrahiyyə məktəbinin banisi

**AMEA-nın Rəyasət Heyətində akademik Mustafa Topçubaşovun anadan olmasının 130 illiyi münasibətilə tədbir keçirilib**

səh. 2

### Prezident təqaüdçüləri ilə görüş keçirilib

səh. 2

### Yataqxanalarda yoxlama aparılıb

səh. 3

### Pakistanlı professor universitetimizdə akademik fəaliyyət göstərib

səh. 5



### BDU-da ATU-nun 95 illik yubileyi qeyd olunub

Rektor, professor Gəray Gəraybəyli: İki ali məktəb arasındakı səmərəli əməkdaşlıq tarixi bağlara söykənir

səh. 2

### Alimlərimizin növbəti elmi uğuru beynəlxalq səviyyədə tanınıb

səh. 6

### Refraktiv əməliyyat hər kəsə uyğun deyil

*Dosent Qurban İsmayılov: Həkim pasiyenti öz övladı qədər düşünməlidir*

səh. 6



### Tədris Departamenti Böyük Elmi Şurada hesabat verib

Rektor, professor Gəray Gəraybəyli bildirib ki, tədris prosesində müasir tələblərə uyğun ciddi dəyişikliklər gözlənilir

səh. 4



## Rektor Prezident təqaüdçüləri ilə görüşüb

### Professor Gəray Gəraybəyli: Universitet illəri həm zəhmət, həm də böyük imkanlar dövrüdür

**Universitetimizin rektoru, professor Gəray Gəraybəyli Prezident təqaüdçüləri ilə görüş keçirib. Görüşdə bu il bu yüksək adı qazanmış 26 tələbə iştirak edib.**

Rektor tələbələri təbrik edərək onlara gələcək akademik və peşəkar fəaliyyətlərində uğurlar arzulayıb. O, universitet illərinin insan həyatında xüsusi önəm daşıdığını, həmçinin bu dövrün tələbələr üçün müəyyən çətinliklərlə müşayiət olunduğunu vurğulayıb. Azərbaycan Tibb Universitetində istedadlı tələbələrin inkişafına daim diqqət yetirildiyini və potensiallarını reallaşdırmaları üçün onlara lazımi şərait yaradıldığını vurğulayan G.Gəraybəyli, hər zaman tələbələrin yanında olduğunu bildirib.

“Universitet illəri həm zəhmət, həm də böyük imkanlar dövrüdür. Sizlər burada yalnız bilik deyil, həm də həyat dərsləri alırsınız” – rektor qeyd edib.

Tədris işləri üzrə prorektor, professor Anar Ağayev nəzərə çatdırıb ki, Prezident təqaüdünə layiq görülmək hər bir tələbə üçün həm böyük şərəf, həm də məsuliyyətdir. A.Ağayev bu uğurun gənclərin bilik, zəhmət və əzmkarlığının nəticəsi olduğunu deyib.

Görüşdə Tədris Departamentinin müdiri Kamandar Yaqubov, I Müalicə-profilaktika fakültəsinin dekanı Elşad Novruzov, II Müalicə-profilaktika fakültəsinin dekanı İsrail Məhərrəmbəyli və Stomatologiya fakültəsinin dekanı Elmira Əliyeva da iştirak edirdilər. Çıxış edənlər tələbələrin inkişafı və təhsildə yüksək nəticələr əldə etmələri üçün birgə fəaliyyətin əhəmiyyətini vurğulayıblar.

Görüşün sonunda Prezident təqaüdü qazanmış tələbələrə pul hədiyyəsi təqdim olunub.

# Azərbaycan cərrahiyyə məktəbinin banisi

### AMEA-nın Rəyasət Heyətində akademik Mustafa Topçubaşovun anadan olmasının 130 illiyi münasibətilə tədbir keçirilib






AMEA-nın Rəyasət Heyətində görkəmli alim və cərrah, tibb elmləri doktoru, akademik Mustafa Topçubaşovun anadan olmasının 130 illiyinə həsr edilmiş yubiley tədbiri keçirilib. Azərbaycan Milli Elmlər Akademiyası və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə baş tutan tədbirdən əvvəl akademikin həyat və fəaliyyətini əks etdirən rəsm əsərlərindən ibarət sərgiyə baxış olub.

Sonra AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, səhiyyə naziri Teymur Musayev, Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov çıxış edərək M.Topçubaşovun elmi fəaliyyəti, tibb elmində tətbiq etdiyi yeniliklər haqqında danışıblar. Tədbirdə Azərbaycan səhiyyəsi və tibb elminin tarixinə adı əbədi həkk olunmuş alimin elmi-təşkilati fəaliyyətindən də söz açılıb.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli akademik M.Topçubaşovun ölkəmizin tibb təhsilində göstərdiyi müstəsna xidmətləri vurğulayıb. Qeyd edib ki, M.Topçubaşov 1920-ci ildə Bakı Dövlət Universitetinin yenicə yaradılmış Tibb fakültəsində fəaliyyət göstərib: “Onun rəhbərliyi altında burada fakültativ cərrahiyyə kafedrası qurulub və inkişaf etdirilib. Akademik tibb təhsilində islahatçı mövqeyi ilə seçilib. O, tələbələrin klinik biliklərinin gücləndirilməsini, praktik təcrübəyə üstünlük verilməsini, yeni tədris metodlarının tətbiqini və milli kadrların yetişdirilməsini prioritet hesab edirdi. Onun təşəbbüsü ilə cərrahiyyə fənlərinin tədrisində klinik-praktik məşğələlərin həcmi artırılmış, tələbələrin xəstələrlə birbaşa ünsiyyətdə olması, müşahidələr aparması, əməliyyat proseslərini izləməsi və iştirak etməsi tədris prosesinə daxil edilmişdi”.

Rektor bildirib ki, akademikin rəhbərliyi ilə Azərbaycan dilində 5 cildlik “Xüsusi cərrahlıq” dərsliyi hazırlanıb. Bu əsər dərs vəsaiti olması ilə yanaşı, həm də milli tibbi terminologiyanın formalaşmasına mühüm töhfə verib.

Professor G.Gəraybəyli qeyd edib ki, Azərbaycanda cərrahiyyə məktəbinin formalaşması bilavasitə akademik M.Topçubaşovun adı ilə bağlıdır: “Onun rəhbərliyi altında müxtəlif ixtisaslar üzrə onlarla yüksək səviyyəli həkim, tədqiqatçı və pedaqoq yetişib, 35-dən artıq doktorluq və namizədlik dissertasiyasına rəhbərlik edib. 62 illik fəaliyyəti ərzində Topçubaşov 100 minə yaxın əməliyyat aparıb, 200-dən çox elmi iş, 7 monoqrafiya və çoxsaylı ixtiraların müəllifi olub. Azərbaycan tibb təhsilinin və səhiyyəsinin inkişafında, milli tibbi məktəbin formalaşmasında misilsiz rol oynamış M.Topçubaşovun adı Azərbaycan tibb tarixində əbədi yaşayacaq və qoyduğu zəngin irs gələcək nəsillərə yol göstərəcək”.

Tədbirdə Mustafa Topçubaşovun həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib. Daha sonra AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, millət vəkili Əziz Ələkbərli və ATU-nun akademik M.Topçubaşov adına III Cərrahi xəstəliklər kafedrasının doktorantı Hilalə Abbasova çıxış edərək, onun Azərbaycan tibb elminə, səhiyyəsinə, yüksəkixtisaslı kadr hazırlığı işinə verdiyi töhfələrdən danışıblar.

Sonda Topçubaşovlar ailəsi adından oğlu, Mərkəzi Klinikanın baş direktorunun müavini, əməkdar həkim Ceyhun Topçubaşov çıxış edərək atasının xatirəsinə göstərilən ehtirama görə dövlət başçısına, həmçinin tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

# BDU-da ATU-nun 95 illik yubileyi qeyd olunub

### Rektor, professor Gəray Gəraybəyli: İki ali məktəb arasındakı səmərəli əməkdaşlıq tarixi bağlara söykənir



**Bakı Dövlət Universitetində (BDU) Azərbaycan Tibb Universitetinin yaradılmasının 95 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə Dövlət himni səsləndirilib. Torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.**

BDU-nun rektoru Elçin Babayev milli səhiyyə sistemimizin, ali tibb təhsilinin inkişafında mühüm rol oynamış ATU-nun 95 illik yubileyi münasibətilə Universitetin kollektivini təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Rektor diqqətə çatdırıb ki, 1919-cu ildə təsis edilmiş Bakı Dövlət Universitetinin Tibb fakültəsi əsasında 1930-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutu yaradılıb: “İlk dərs ilində BDU-da yalnız Tarix-filologiya və Tibb fakültələri fəaliyyət göstərirdi. BDU-ya ilk tələbələr 1919-cu ilin noyabrında qəbul edilib, Tibb fakültəsinə 368 tələbə və 122 sərbəst dinləyici qəbulu həyata keçirilib. Elə ilk illərdən elmi-pedaqoji keyfiyyətə üstünlük verilərək, həm nəzəri, həm də klinik tibb təhsilinin inkişafına zəmin yaradılıb, milli tibbi kadrların yetişdirilməsinə önəm verilib. Tibb Universitetinin əsası məhz belə möhkəm əsaslar üzərində qurulub. Bu faktlar təkcə tarixi bir əlaqə deyil - iki universitet arasında formalaşmış elmi və akademik ənənənin başlanğıcıdır. Sələflərimizin zəhməti və elmi məktəbi bu gün səhiyyə sahəsində ali təhsil ocağının inkişafı və nailiyyətlərinin əsasını təşkil edir”.

E.Babayev vurğulayıb ki, hazırda bu ənənələr yeni məzmunla davam edir. Azərbaycan Tibb Universiteti regionda ali tibbi təhsilin aparıcı mərkəzlərindən birinə çevrilib, beynəlxalq elmi mühitlə fəal əməkdaşlıq edir və qlobal akademik proseslərdə aktiv iştirakçı rolunu oynayır.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli rəhbərlik etdiyi ali təhsil ocağının 95 illik yubileyi münasibətilə BDU-da tədbir keçirilməsinin rəmzi məna daşıdığını bildirib. Qeyd edib ki, ATU BDU ilə qırılmaz tellərlə bağlıdır, ölkədə ali tibb təhsilinin əsası 1919-cu ildə məhz BDU-da qoyulub: “Azərbaycan Tibb Universiteti 1930-cu ildə BDU-nun Tibb fakültəsinin bazası əsasında yaradılaraq müstəqil ali məktəbə çevrilib. Bu mənəvi bağ indi də davam edir, iki ali məktəb arasında səmərəli əməkdaşlıq mövcuddur. Biz müxtəlif sahələr üzrə bu əlaqələri daha da inkişaf etdirməyə hazırıq. Ümid edirəm ki, qarşıda birgə nailiyyətlərimizi qeyd edəcəyik”.

Rektor vurğulayıb ki, ATU-nun yaradılması ölkəmizdə səhiyyənin və tibb təhsilinin inkişafı tarixində önəmli bir dönüş nöqtəsidir. G.Gəraybəyli Ulu Öndər Heydər Əliyevin elmə, təhsilə, xüsusilə də tibb sahəsinin inkişafına böyük diqqət və qayğı ilə yanaşdığını qeyd edib. Bu qayğı Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən davam etdirilir: “Vaxtilə ATU ölkədə ali tibb təhsili verən yeganə universitet idi. Sevindirici haldır ki, bu il biz ATU-nun 95, Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin 25 illik yubileyini, Qarabağ Universitetində isə Tibb fakültəsinin yaradılmasını qeyd edirik. Bu, Azərbaycanda tibb təhsilinin inkişafını göstərir”.

BDU-nun Elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, ATU-nun Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultan, Əczaçılıq toksikologiyası və kimya kafedrasının professoru Fikrət Quliyev, Tibbi və bioloji fizika kafedrasının müdiri, dosent İsmayıl Qafarov çıxışlarında ATU-nun keçdiyi inkişaf yoluna nəzər salıb, BDU-ATU əməkdaşlığının yeni inkişaf istiqamətləri barədə fikirlərini bölüşüblər.

Sonda ATU-nun tarixi və bugünkü fəaliyyəti haqqında videoçarx nümayiş olunub.



## Qazaxıstanlı magistrantlar elmi-təcrübə proqramını başa vurub

Marat Ospanov adına Qərbi Qazaxıstan Tibb Universitetinin 15 magistr tələbəsi Azərbaycan Tibb Universitetində iki həftəlik elmi-təcrübə proqramını uğurla başa vurub. Akademik mobillik proqramı çərçivəsində baş tutan bu təcrübə beynəlxalq təhsil əməkdaşlığının inkişafına töhfədir.

Qeyd edək ki, magistrantlar ATU-nun müxtəlif ixtisas kafedralarında nəzəri və praktiki təlimlərə cəlb olunublar. Onlar Təcili tibbi yardım, Farmakologiya, Əczaçılıq kimyası, Əczaçılıq texnologiyası və idarəedilməsi, I və III Daxili xəstəliklər, II Mamalıq və ginekologiya, Terapevtik stomatologiya, Tibbi və bioloji fizika, Dəri-zöhrəvi xəstəliklər, Ailə təbabəti və ictimai sağlamlıq və Səhiyyənin təşkili kafedralarında bilik və bacarıqlarını artırıblar.

Qazaxıstanlı magistrantlarla görüşən rektor, professor Gəray Gəraybəyli iki universitet arasında qurulan elmi və akademik əlaqələrin əhəmiyyətini vurğulayıb: "Azərbaycan Tibb Universiteti beynəlxalq əməkdaşlığa xüsusi önəm verir. Tələbə və müəllim mübadiləsi – tədrisin keyfiyyətinin yüksəldilməsi, elmi yanaşmaların paylaşılması və ortaq layihələrin təşviqi baxımından mühüm əhəmiyyət kəsb edir".

Görüşün sonunda tələbələrə sertifikatlar təqdim olunub.

Qazaxıstanlı tələbələr universitetimizdəki yüksək səviyyəli tədris və klinik mühitə görə təşəkkür edərək, bu təcrübənin onların gələcək tibbi fəaliyyətinə müsbət təsir göstərəcəyini bildiriblər.

**10 Oktyabr – Ümumdünya Psixi Sağlamlıq Günü ərəfəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) yanında “Psixi sağlamlıq və insan hüquqları” sahəsində İşçi Qrupun ilk iclası keçirilib.**

# “Psixiatriya sahəsinə ixtisaslı kadrlar gəlməlidir”

## “Psixi sağlamlıq və insan hüquqları” sahəsində İşçi Qrupun ilk iclası keçirilib



İclasda çıxış edən ombudsman Səbinə Əliyeva psixi sağlamlıq hüququnun insanın tibbi yardım almaq, stiqma və ayrı-seçkilikdən qorunmaq, təhlükəsiz və inklüziv mühitdə yaşamaq imkanlarını özündə birləşdirdiyini qeyd edib. Müvəkkil vurğulayıb ki, beynəlxalq sənədlərdə psixi sağlamlıq hüququ anlayışı geniş yer alır və bu istiqamətdə beynəlxalq prinsiplərdən istifadə etməklə ölkəmizdə hüquqi bazanın və praktiki mexanizmlərin təkmilləşdirilməsi zəruridir. S.Əliyeva Ombudsman təsisatının psixi sağlamlıq hüququnun təmin olunması sahəsində həyata keçirdiyi fəaliyyət barədə məlumat verib, xüsusilə Qarabağ müharibəsinin ağır nəticələrini yaşayan insanlara göstərilən yardım haqqında danışıb. Tədbirdə iştirak edən Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Azərbaycanda psixi sağlamlıq sahəsinin daim dövlətin diqqət mərkəzində olduğunu bildirib, bu sahədəki mövcud problemlər və onların həlli yollarından danışıb. Qeyd edib ki, psixi xəstəlikləri olan insanlara peşəkarlar tərəfindən yüksək səviyyədə xidmət göstərilməlidir. Lakin problemlər yalnız psixiatrların gücü ilə aradan qalxa bilməz: "Elə bir kliniki istiqamət yoxdur ki, onun nəticələri və problemləri cəmiyyətə bu qədər təsir göstərsin. Psixi sağlamlıq həm cəmiyyətin vəziyyətindən asılıdır, həm də cəmiyyətin münasibəti psixi sağlamlığa təsir edir. Ona görə də digər tibbi sahələrin problemlərini mütəxəssislər özləri həll edə bildiyi halda, psixiatriyanın problemləri yalnız psixiatrların gücü ilə aradan qalxa bilməz. Burada mütləq cəmiyyətin rolu, ictimai münasibətin dəstəyi vacibdir. Üstəlik, burada söhbət yalnız psixi xəstələrin hüquqlarından getmir. Biz bütün cəmiyyətin, xüsusən də sağlamlığın psixoloji tərəflərinə diqqət yetirməliyik". G.Gəraybəyli son illərdə dövlət sektorunda çalışan psixiatrların sayının azaldığını da bildirib: “Təxminən 7-8 il, bəlkə də 10 il əvvəl dövlət sektorunda çalışan psixiatrların sayı 800-dən çox idi. Lakin ötən illər ərzində əhalinin və xəstəliklərin artmasına baxmayaraq, bu rəqəm hazırda 200-dən aşağı düşüb. Psixiatriya sahəsinə həkimlər, tibb bacıları və digər ixtisaslı kadrlar gəlməsə, qarşıdakı dövrdə pasiyentlərə xidmət göstərəcək mütəxəssislər sarıdan qıtlıq yaşayacağıq. Digər tərəfdən, unutmaq olmaz ki, hər bir psixi problem ətrafında aqressiya, autoaqressiya, narkomaniya və digər sosial problemlər formalaşır. Ona görə də cəmiyyət olaraq bu problemi ciddi qəbul etməyimiz lazımdır”. İclasda cəmiyyətin maarifləndirilməsi, stiqma və stereotiplərin aradan qaldırılması, tibbi xidmətə əlçatanlığın artırılması, eləcə də psixi sağlamlıq sistemində mövcud problemlərin həlli üzrə təklif və tövsiyələr səsləndirilib. Qeyd olunub ki, “Psixi sağlamlıq və insan hüquqları” sahəsində İşçi Qrup bu istiqamətdə mütəxəssisləri bir araya gətirməklə, psixi sağlamlıq problemlərinin həlli, dövlət qurumları ilə əməkdaşlığın möhkəmləndirilməsi və səmərəli fəaliyyətin təmin edilməsi baxımından mühüm platforma rolunu oynayacaq.

# “ProQuest Central” akademik informasiya bazasının açılışı olub



“THE Avrasiya Universitetləri Sammiti” çərçivəsində “ProQuest Central” akademik informasiya bazasının rəsmi açılış mərasimi keçirilib. Mərasimə universitetlərin nümayəndələri, “Clarivate” şirkətinin satış üzrə mütəxəssisləri, həmçinin Azərbaycanda fəaliyyət göstərən kitabxanaların təmsilçiləri qatılıblar. Tədbirdə universitetimizdən Tədris işləri üzrə prorektor, professor Anar Ağayev, Elmi Tədqiqatların İdarə Olunması Departamentinin rəhbəri, professor Eldar Qarayev, kitabxananın müdiri Ziyafət Eminova və Əqli mülkiyyətin inkişafı, qrant, patent və elmi ekspertiza şöbəsinin müdiri, assistent Aygün Kazımlı iştirak ediblər. Tədbirdə çıxış edən Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova bildirib ki, nüfuzlu şirkət olan “Clarivate” ilə ölkə səviyyəsində əməkdaşlıq mövcuddur. Daha sonra layihə barədə geniş təqdimatla çıxış edən “Clarivate” şirkətinin məsləhətçisi İltifat İbrahimov qeyd edib ki, 2024-cü ildə əməkdaşlıq genişmiqyaslı abunəliyə çevrilib: “Bu addımla Azərbaycanın bütün universitet və tədqiqat müəssisələrinə “Web of Science” platformasına çıxış imkanı yaradıldı. Bu isə Azərbaycan elminin beynəlxalq miqyasda mövqelərini gücləndirir”. Onun sözlərinə görə, “ProQuest Central”ın milli səviyyədə istifadəyə verilməsi ilə 47 çoxşaxəli verilənlər bazasına, 43 min tammətnli jurnal, 3,5 milyon ön çap məqaləsi, təxminən 400 min dissertasiya (o cümlədən bəzi Azərbaycan dissertasiyaları), qlobal xəbər arxivi, bazar hesabatları, konfrans materialları və s. çıxış imkanı əldə olunub. Tədbirin sonunda “ProQuest Central” bazasından istifadəyə dair təqdimat keçirilib və iştirakçılara sistemin imkanları barədə təlim xarakterli məlumat verilib.

# QİÇS-lə Mübarizə Mərkəzinə tanışlıq turu keçirilib

Epidemiologiya və biostatistika kafedrasının tədris proqramı çərçivəsində tələbələr üçün praktik vərdişlərlə yaxından tanış olmaq məqsədilə Respublika QİÇS-lə Mübarizə Mərkəzinə tanışlıq turu keçirilib. Tələbələr ölkəmizdə İİV infeksiyası ilə mübarizə istiqamətində həyata keçirilən əks-epidemik tədbirlərlə və epidemioloji prosesin idarə olunması proqramları ilə yaxından tanış olublar. Tur çərçivəsində tələbələr İİV infeksiyasının müasir metodologiya üzrə idarə olunması, profilaktikası, diaqnostikası və müalicəsi ilə bağlı məlumatlandırılıblar. Mütəxəssislər sağlamlığa ciddi təhlükə olan İİV-in aşkarlanması, İİV/QİÇS-in müalicəsi istiqamətində görülən işlər, müayinə və müalicənin yüksək səviyyədə aparılması üçün yaradılan şəraitdən danışıb. Tələbələr Mərkəzin lazımi avadanlıqlarla təchiz olunmuş müasir tələblərə uyğun laboratoriyasında həyata keçirilən müayinələrlə əyani tanış olublar.



# Yataqxanalarda yoxlama aparılıb



Tədris işləri üzrə prorektor, professor Anar Ağayev, Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov, Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov, Təsərrüfat işləri üzrə prorektor İlqar Mehrabov və digər şəxslər tərəfindən tələbə yataqxanalarına baxış keçirilib. Baxış zamanı yataqxanalarda aparılmış təmir işlərinin keyfiyyəti, sanitar-gigiyenik vəziyyət, tələbələrin yaşayış şəraiti, təhlükəsizlik sistemləri və ümumi infrastrukturun hazırkı vəziyyəti qiymətləndirilib. Bildirilib ki, tezliklə bütün yataqxanalarda işlər tam yekunlaşdırılacaq. Yoxlama nəticəsində müəyyən çatışmazlıqların aradan qaldırılması ilə bağlı tapşırıqlar verilib. Qeyd edək ki, tələbələrimizin sağlam və komfortlu yaşayış şəraiti ilə təmin edilməsi universitet rəhbərliyi üçün öndə duran məsələlərdəndir. Universitet rəhbərliyi tələbələrin sosial rifahına və yaşayış şəraitinə daim xüsusi diqqət yetirərək, onların ehtiyac və təkliflərini nəzərə alır.

# ATU-nun professoru fəxri akademik seçilib



Oftalmologiya kafedrasının müdiri, professor Paşa Musayev Qəlbinur Aytmatov Akademiyasının fəxri akademiki seçilib. O bu ada tibb sahəsindəki (Koronavirus pandemiyasında gözün selikli qişasından virusun dərin toxumalara keçidini önləyən, çoxşaxəli təsir mexanizminə malik “Aktipol” preparatının işlənib hazırlanması, klinik təcrübəyə tətbiqi) və ədəbi yaradıcılıqdakı uğurlarına görə layiq görülüb. Professora Aytmatov Akademiyasının diplomunu və fəxri adın nişanını Azərbaycan Yazıçılar Birliyində akademiyanın prezidenti Azizbek Akmataliyev təqdim edib.



# Miqrasiya məsələləri ilə bağlı maarifləndirici tədbir təşkil edilib

Xarici tələbələrlə iş üzrə dekanlıq və “Miqrasiya sahəsinin inkişafı” İctimai Birliyinin birgə təşkilatçılığı ilə Dövlət Miqrasiya Xidməti (DMX) əməkdaşlarının universitetimizdə təhsil alan 1-ci kurs əcnəbi tələbələrlə görüşü keçirilib. Tədbiri Xarici tələbələrlə iş üzrə dekan Natiq Bayramov açıb və DMX əməkdaşlarını universitetdə görməkdən məmnunluğunu bildirib. Görüşün məqsədinin əcnəbi tələbələrə miqrasiya qanunvericiliyi barədə ətraflı məlumat vermək, onları maraqlandıran sualları cavablandırmaq olduğunu qeyd edib. “Miqrasiya sahəsinin inkişafı” İB-nin sədri Vidadi Fətullayev çıxışında ictimai birlik olaraq, mütəmadi şəkildə əcnəbilərin təhsil aldığı ali təhsil müəssisələrində DMX əməkdaşları ilə görüşlər təşkil etdiklərini bildirib. O, tələbələrin miqrasiya xidmətlərinə əlçatanlığını təmin etməkdə bu cür maarifləndirici tədbirlərin vacibliyini vurğulayıb. Sonra Xidmətin Hüquqi təminat idarəsinin rəis müavini Xəyalə Abbasova iştirakçılara miqrasiya qanunvericiliyi haqqında ətraflı məlumat verib. O, əcnəbi tələbələrin Azərbaycan Respublikasına gəlməsi, ölkədə müvəqqəti olması və ölkədən getməsi, həmçinin yaşadığı yer üzrə qeydiyyat məsələlərindən danışıb, bu prosedurların vaxtında həyata keçirilməsinin zəruriliyini diqqətə çatdırıb. Görüşdə Miqrasiya nəzarəti baş idarəsinin baş inspektoru Xəyalə İsmayılova, Miqrasiya proseslərinin təhlili və informasiya təminatı baş idarəsinin inspektoru Ayxan Rzayev, Miqrasiya proseslərini tənzimləmə baş idarəsinin baş inspektoru Ruslan Ağayev, həmin idarənin baş inspektoru Nihat Kazımov iştirak ediblər. 200-dən çox əcnəbi tələbənin iştirak etdiyi tədbir diskussiya şəraitində öz işini başa çatdırıb. Tələbələri maraqlandıran çoxsaylı sualları DMX-nın əməkdaşları ətraflı şəkildə cavablandırıb.

# Tədris Departamenti Böyük Elmi Şurada hesabat verib

## Rektor, professor Gəray Gəraybəyli bildirib ki, tədris prosesində müasir tələblərə uyğun ciddi dəyişikliklər gözlənilir

**Sentyabrın 30-da Azərbaycan Tibb Universiteti Böyük Elmi Şurasının 2025-2026-cı tədris ilində ilk iclası keçirilib. İclası universitetin rektoru, professor Gəray Gəraybəyli açaraq şura üzvlərini yeni tədris ilinin başlanması münasibətilə təbrik edib.**

Rektor gündəlikdə duran məsələlərin müzakirəsindən öncə professor Anar Ağayevin 2025-ci ilin 5 sentyabr tarixindən Azərbaycan Tibb Universitetinin Tədris işləri üzrə prorektoru vəzifəsinə təyin olunduğunu şura üzvlərinin diqqətinə çatdırıb. Həmçinin II Daxili xəstəliklər kafedrasının müdiri, professor Rafiq Məmmədhəsənovu ölkə başçısı tərəfindən 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunması və 80 illik yubileyi, I Cərrahi xəstəliklər kafedrasının professoru Məhəmməd Kərimovu isə 70 illik yubileyi münasibətilə təbrik edərək, hər iki yubilyara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.







Bundan sonra "2024-2025-ci tədris ilinin yaz semestrinin yay imtahan sessiyasının nəticələrinin təhlili və 2025-2026-cı tədris ilində universitet kollektivinin qarşısında duran vəzifələr" barədə Tədris Departamentinin rəhbəri, dosent Kamandar Yaqubovun hesabatı dinlənilib.

Azərbaycanda elm və təhsilin inkişafı məqsədilə hələ Ümummilli Liderimiz Heydər Əliyevin dövründə aparılan islahatların bu gün cənab prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyən departamentin rəhbəri bildirib ki, Azərbaycanda təhsilə qayğı ölkənin gələcəyinə xidmət edən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. K.Yaqubov professor-müəllim heyətinin bu qayğını öz nailiyyətləri ilə doğrultmağa çalışdığını diqqətə çatdıraraq qeyd edib ki, universitetimiz bütün tədris pillələrində tədris aparan əsas təhsil ocağıdır: "Universitetimizdə 2025-2026-cı tədris ilində 268 nəfər subbakalavr (hərbi feldşer işi), 698 nəfər bakalavr (fizioterapiya, tibb bacısı (qardaşı) işi, əczaçılıq) - onlardan fizioterapiya ixtisası üzrə 147 nəfər, tibb bacısı (qardaşı) işi ixtisası üzrə 173 nəfər, əczaçılıq ixtisası üzrə 378 nəfər, əsas baza (ali) təhsili tibb-stomatologiya ixtisası üzrə 1198 nəfər, tibb ixtisası üzrə 4902 nəfər, hərbi tibb ixtisası üzrə 454 nəfər, ictimai səhiyyə ixtisası üzrə 315 nəfər, magistratura pilləsində 9+27 (36) ixtisaslaşma üzrə ümumilikdə 189 nəfər, rezidentura pilləsində 44 ixtisaslaşma üzrə ümumilikdə 600 nəfər, doktorantura pilləsi üzrə isə 186 nəfər olmaqla, cəmi 8804 nəfər təhsil alır".

Departamentin rəhbəri bugünkü müzakirələrin yalnız nəticələri qiymətləndirmək deyil, həm də universitetimizin akademik mühitini daha da gücləndirmək baxımından böyük əhəmiyyət daşıdığını vurğulayıb: "Keçirilən imtahan sessiyasının nəticələrinin data analitikası bizə həm uğurlarımızı, həm də üzərində işləməli olduğumuz sahələri təhlil etməyə imkan verir. Universitetimizdə 2024-2025 tədris ilində təhsil alan 7571 tələbədən 7205 nəfəri builki imtahanlarda iştirak edib, 366 nəfər isə üzrlü və üzrsüz səbəblərdən imtahanlarda iştirak etməyib. 6457 nəfər tələbə imtahan sessiyasını müvəffəqiyyətlə başa vurub. 950 nəfər (14,7%) sessiyanı "əla" qiymətlərlə, 3049 nəfər (47,2%) "əla" və "yaxşı" qiymətlərlə, 2458 nəfər (38,06%) qarışıq qiymətlərlə bitirib. Sessiyanın nəticələrinə görə, 956 nəfər tələbənin akademik borcu qalıb ki, bunlardan da 632 nəfərin yalnız 1 fəndən, 230 nəfərin 2 fəndən, 94 nəfərin 3 fəndən akademik borcu var. Ən çox akademik borc (F qiyməti alan) I kurs tələbələrində müşahidə olunur".

Məruzədə universitetin fakültələr və kurslar üzrə keyfiyyət göstəriciləri də öz əksini tapıb. Kurslar üzrə ən aşağı keyfiyyət göstəricisi I, ən yüksək keyfiyyət göstəricisi VI kurslarda, fakültələr üzrə isə ən aşağı keyfiyyət göstəricisi Hərbi tibb, ən yüksək keyfiyyət göstəricisi İctimai səhiyyə fakültəsində olub.

Cari tədris ilində ilk dəfə olaraq, semestrdə aralıq imtahanlarının "məxsusi həftədə" keçirildiyini, eləcə də rektoryanı şuranın qərarına əsasən, bu semestr əvvəlki illərdən fərqli olaraq, imtahan öncəsi I kurs tələbələrinə nümunəvi testlərin (PDF-lər) verilmədiyini söyləyən K.Yaqubov, istənilən sahənin fəaliyyətinin düzgün təşkilinin əsas meyarlarından sayılan nizam-intizam məsələlərinə ciddi riayət olunmasının vacibliyinə də toxunub. O, nizam-intizam pozuntularına yol vermiş tələbələr barəsində müvafiq tədbirlər görüldüyünü diqqətə çatdırıb.

K.Yaqubov hesabat məruzəsində Dövlət İmtahan Mərkəzi tərəfindən aparılan qəbul imtahanları zamanı IV qrup üzrə yüksək bal toplayanların böyük əksəriyyətinin, yəni qrup üzrə bütün Prezident təqaüdçülərinin bizim universiteti seçdiklərini xatırladıb: "Son 6 dərs ilində hər il 23-25 nəfər olmaqla, təhsil almaq üçün bizim universiteti seçən 146 Prezident təqaüdçüsünün imtahan nəticələri heç də qənaətbəxş deyil. 6 il ərzində universitetə daxil olan 146 nəfər Prezident təqaüdçüsündən bu günə 22 nəfəri qalıb. Bu tələbələr müxtəlif fənlərdən "A" qiyməti ala bilmədiklərinə görə Prezident təqaüdçüsü adını itiriblər. Hər biri IV qrupda təhsil almağı seçmiş, tam orta təhsili əla qiymətlərlə başa vurmuş və çətin test sınaqlarından ən yüksək nəticələri əldə etmiş bu tələbələr universitetimiz üçün bir fəxarət olmalıdır. Biz gələcəkdə belə gənclərimizin potensialını tibb elminin inkişafına, yüksək ixtisaslı həkim və əczaçı kadrlarının hazırlanmasına yönəltməliyik".

K.Yaqubov onu da bildirib ki, universitetimizi 2024-2025-ci tədris ilində bitirən 1280 nəfər tələbədən 898 nəfəri yerli, 382 nəfəri isə əcnəbidir.

Payız semestrində universitetimizin qarşısında mühüm vəzifələr durduğunu söyləyən məruzəçinin sözlərinə görə, bunlardan ən önəmlisi tədris prosesində innovativ və tələbəyönlü yanaşmaların daha geniş tətbiq olunmasıdır: "Biliklərin sadəcə ötürülməsi kifayət deyil, biz tələbələrimizin tənqidi düşünmə, problemləri analiz etmə və praktiki bacarıqlarını inkişaf etdirmə qabiliyyətini gücləndirməliyik. Bu məqsədlə interaktiv dərs metodlarının, simulyasiya mərkəzlərinin, klinik təcrübələrin və elmi-tədqiqat işlərinin tədris prosesindəki rolunu artırmalıyıq".

Universitetimizdə kadr hazırlığının əmək bazarının tələblərinə cavab verən formada təşkil edildiyini vurğulayan K.Yaqubov, çıxışının sonunda mövcud nöqsanların bu dərs ilində aradan qaldırılacağına, yeni semestrin hər birimiz üçün uğurlu, məhsuldar və yeniliklərlə dolu olacağına əminliyini bildirib.

Məruzə ətrafında çıxış edən ATU-nun Apellyasiya Komissiyasının sədri, professor Gülnarə Əzizova cari ilin yaz semestrində 1237 müraciətə baxıldığını, 426 iddianın əsaslı, 811 iddianın isə əsassız olduğunu, keçən ilin bu dövrü ilə müqayisədə əsaslı iddiaların sayının 10 faiz azaldığını deyib. Eyni zamanda apellyasiya araşdırmalarının kurslar və fakültələr üzrə nəticələrini də diqqətə çatdıran komissiya sədri, bu məsələdə ekspertlərin üzərinə böyük məsuliyyət düşdüyünü bildirib.

İnformasiya Texnologiyaları Departamentinin rəhbəri Rəmzi Əliyev çıxışında bildirib ki, bu ilin fevralından Böyük Elmi Şuranın qərarı ilə imtahanların təşkili bizim departamentə həvalə olunub: "İlk növbədə imtahan zallarının izolyasiyası yönündə işlər görülüb və ekspertlərlə söhbətlər aparılıb. Sualların keyfiyyətcə yaxşılaşması səbəbindən apellyasiya şikayətlərinin sayı xeyli azalıb və bu istiqamətdə davamlı işlər gedir".

Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli isə 2024-2025-ci tədris ilində ilk dəfə olaraq Stomatologiya, Əczaçılıq və İctimai səhiyyə fakültələrində məzun tələbələr üçün təşkil olunmuş istehsalat təcrübəsinin yekun qiymətləndirilməsinin formatından və bu təcrübənin üstünlüklərindən danışıb.

Çıxış edənlər hesabat məruzəsini qənaətbəxş qiymətləndirərək təkliflərini irəli sürüblər.

Müzakirələri yekunlaşdıran rektor, professor Gəray Gəraybəyli ölkə rəhbərliyinin təhsilə xüsusi qayğı göstərdiyini vurğulayıb və tələbələrin böyük əksəriyyətinin dövlət hesabına təhsil almasını bu qayğının bariz nümunəsi kimi dəyərləndirib. Professor G.Gəraybəyli tədris ilinin əvvəlində Elm və Təhsil Nazirliyində rektorların iştirakı ilə keçirən iclasla bağlı bəzi təəssüratlarını şura üzvləri ilə bölüşüb. Ölkədə tam formalaşmış təhsil strategiyasının olduğunu, yeni maliyyələşmə mexanizmlərinin hazırlandığını vurğulayan rektor qeyd edib ki, müasir tələblərə uyğun ciddi dəyişikliklər gözlənilir. Belə ki, son 5 ildə bir məqaləsi çıxmayan, elmə heç bir faydası dəyməyən kadrların tədrisdən uzaqlaşdırılması istisna deyil. Ümumi fikir ondan ibarətdir ki, tədrisin keyfiyyəti daim artırılmalıdır: "Dəfələrlə dediyim kimi, universitetimiz bir zamanlar Azərbaycanda tibb kadrları hazırlayan yeganə ali məktəb idi. Ancaq indi zaman dəyişib, işimizə olan tələblər və dərs dediyimiz tələbələr dəyişib. Qarabağ Universitetində Tibb fakültəsi açılıb, uzun illərdir ki, Naxçıvan Dövlət Universitetində də tibb kadrları hazırlanır. Həmçinin İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı fəaliyyət göstərir. Başqa universitetlərdə də tibb fakültəsinin açılması gündəmdədir. Artıq rəqabət mühiti yaranıb". Bütün bunların universitet kollektivinin üzərinə ciddi məsuliyyət qoyduğunu söyləyən professor G.Gəraybəyli, əczaçılıq və ictimai səhiyyə ixtisaslarına qəbul planının aşağı düşməsini bir həyəcan siqnalı kimi səciyyələndirib. Xarici tələbələrin qəbulunun da kəskin şəkildə azaldığına diqqət çəkən rektor, magisrtatura və rezidentura təhsilinin problemləri və bu problemlərin həlli yollarından danışıb. Müzakirə olunan məsələnin aktuallığını, tədrisin keyfiyyətinin yüksəldilməsi və imtahanların optimallaşdırılması istiqamətində davamlı işlər görüldüyünü vurğulayan rektor, narahatlıq doğuran digər problemlərə də aydınlıq gətirib.

Hesabat məruzəsinə dair müzakirələr bitdikdən sonra digər məsələlərə baxılıb. İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi-professoru Vaqif Şadlinskini kafedrada yenidən məsləhətçi-professor vəzifəsinə seçən Elmi Şura, Tədris Cərrahiyyə Klinikasının vergi və icbari ödənişlər üzrə olan borclarının tam bağlanması və normal fəaliyyət göstərməsi üçün vəsait, tibbi avadanlıqların təmiri məqsədilə Tədris Terapevtik Klinikaya maddi yardım ayrılması barədə qərarlar qəbul edib. Eyni zamanda Elmi Tədqiqatların İdarə olunması Departamenti tərəfindən tərtib olunmuş ATU-nun 2025-2030-cu illər üçün yenilənmiş elmi strategiyası və fəaliyyət planını təsdiqləyib. Daha sonra şura üzvləri Miriyeva Ləman Miryusif qızının təhsil ödənişinə güzəştlər edilməsi, 2024-2025-ci tədris ili üçün "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"na uyğun hazırlanmış hesabat, tədris məşğələlərinin aparılmasına və "Səhiyyə menecmenti" ixtisası üzrə II növbə (18:00-dan başlayaraq) tədris prosesinə cəlb edilmiş işçilərin əməyinin saathesabı ödənilməsi məbləğlərinə dəyişiklik edilməsi, institusional akkreditasiyanın verdiyi tövsiyələrin icrası məqsədilə hazırlanmış sənədlər, ATU-nun İnzibati və texniki işçilərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Əsasnaməsi barədə qərarlar qəbul edilib. Sonda klinik protokollar, dərslik, dərs vəsaitləri və metodik vəsaitlərin nəşrinə razılıq verən Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

# Pakistanlı professor universitetimizdə akademik fəaliyyət göstərib



**Xəbər verdiyimiz kimi, Pakistan Respublikasının Swabi Universitetinin Kimya fakültəsinin professoru Abdur Rauf ATU-nun Əczaçılıq toksikologiyası və kimya kafedrasında akademik mübadilə proqramı çərçivəsində fəaliyyət göstərib.**

Səfər müddətində professor Abdur Rauf müxtəlif fənlər üzrə dərslərdə iştirak edib, kafedranın kollektivi və elmi-tədqiqat laboratoriyaları ilə tanış olub. Qonaq Əczaçılıq fakültəsinin Farmakoqnoziya, Əczaçılıq kimyası, Əczaçılıq texnologiyası və idarə olunması kafedralarını ziyarət edərək dərs prosesi, elmi fəaliyyət və laboratoriyalarla maraqlanıb. Qonaq professor, həmçinin Elmi Araşdırmalar Mərkəzini ziyarət edib, alimlərlə görüşərək müxtəlif elmi istiqamətlər üzrə diskussiya və müzakirələr aparıb. Daha sonra A.Rauf Əczaçılıq toksikologiyası və kimya kafedrasında fakültənin bakalavr pilləsi üzrə tələbələr üçün “Üzvi maddələrin infraqırmızı spektrlərinin interpretasiyası” mövzusunda seminar təqdim edib. Səfər çərçivəsində qonaq Əczaçılıq fakültəsinin professor-müəllim heyəti, doktorantları və magistrantlarının iştirakı ilə geniş auditoriyada “Diospyros lotus (Qafqaz xurması) bitkisindən alınan dimer naftoxinonların dərman preparatlarının hazırlanmasında əhəmiyyəti” mövzusunda mühazirə oxuyub. Bundan əlavə, həmin fakültənin bakalavr və magistr pillələrinin tələbələri üçün “Bioloji-fəal maddələrin identifikasiyasında infraqırmızı və nüvə-maqnit rezonans spektroskopiyanın tətbiqi” mövzusunda mühazirə keçirib. Səfərin sonunda professor A.Rauf Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan və Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev ilə görüşüb, gələcək akademik əməkdaşlıq və iki universitet arasında əməkdaşlıq imkanlarını müzakirə edib. Qonağa ATU tərəfindən sertifikat təqdim olunub.

# Özbək professor qonağımız olub



Azərbaycan Tibb Universiteti ilə Özbəkistanın Səmərqənd Dövlət Tibb Universiteti arasında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində həyata keçirilən qarşılıqlı akademik mübadilə proqramı uğurla davam edir. Bu əməkdaşlıq çərçivəsində Səmərqənd universitetinin Histologiya, embriologiya və sitologiya kafedrasının müdiri, professor Firdavs Suratoviç Oripov 1-7 oktyabr tarixlərində universitetimizdə akademik fəaliyyət göstərib. Professor Oripov ATU-nun Histologiya, embriologiya və sitologiya kafedrasında elmi-tədris prosesində fəal iştirak edib, universitetin professor-müəllim heyəti ilə təcrübə mübadiləsi aparıb, tələbələrlə bilik və təcrübəsini bölüşüb. Qonaq mütəxəssis, həmçinin kafedrada aparılan tədris metodları və elmi istiqamətlərlə yaxından tanış olub, birgə əməkdaşlıq imkanlarını müzakirə edilib. Səfər çərçivəsində professor F.Oripov Beynəlxalq işlər üzrə prorektor, dosent Orxan İsayev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Törə Sadıqova və adıçəkilən kafedranın müdiri, professor Eldar Qasımovla görüşüb. Görüş zamanı iki universitet arasında elmi əməkdaşlığın genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi imkanları müzakirə olunub.

**Oktyabrın 8-də II Müalicə-profilaktika fakültəsi Tələbə Elmi Cəmiyyətinin İdarə Heyətinə yeni sədr seçkisi ilə əlaqədar iclas keçirilib.**

# II MPF Tələbə Elmi Cəmiyyətinə yeni sədr seçilib



İclası II MPF-nin dekanı, dosent İsrail Məhərrəmbəyli açaraq bildirib ki, fakültənin TEC-i uzun müddətdir fəaliyyət göstərir: “Bizlər də tələbəlik illərində TEC-in fəaliyyətində aktiv iştirak edənlərdən olmuşuq. Bugünkü toplantımızın məqsədi TEC-ə yeni sədrin seçilməsi ilə əlaqədardır. Sədr seçilmək üçün 5 nəfər namizədliyini irəli sürüb. Onlardan biri sizin səsinizlə sədr seçiləcək. Namizədliklərini irəli sürən tələbələrimiz platformalarını təqdim edib. Onların hər biri TEC-də fəaliyyətləri olan tələbələrdir və beynəlxalq konfranslarda çıxış etmək təcrübəsinə malikdirlər”.

ATU TEC-in elmi rəhbəri, dosent Nərgiz Məmmədova çıxışında bildirib ki, sədrliyə namizədliyini verən hər bir tələbə qabiliyyətli, istedadlı və bacarıqlıdır: “İstərdim ki, onların hər biri sədr seçiləcəyi halda hansı işləri görəcəyi, hansı plan və ideyaları həyata keçirəcəyi barədə toplantı iştirakçılarına məlumat versin. Sonra şəffaf şəkildə seçkimizi keçirək”.

II MPF TEC-in elmi rəhbəri, dosent Aqil Əliyev də öz çıxışında namizədliklərini irəli sürmüş tələbələrin platformaları ilə toplantı iştirakçılarının tanış olmasının vacibliyinə toxunub, sədr seçiləcək tələbəyə uğurlar arzulayıb.

Sonra namizəd tələbələr – Leyla Səfərli, Əsmər Aslanlı, Xədicə Rzazadə, Zeynəb Əlizadə, Marvin Kabuye özləri, fəaliyyətləri, sədr seçilərlərsə görəcəkləri işlər barədə toplantı iştirakçılarına məlumat veriblər.

Çıxışlardan sonra 23 nəfərin iştirakı ilə gizli səsvermə keçirilib. Namizədlər arasında ən çox səs toplayan 5-ci kurs tələbəsi Leyla Səfərli 15 səslə sədr seçilib.

# Tibb ictimaiyyətinə ağır itki üz verib



**Azərbaycan səhiyyə sisteminin inkişafında və modernləşməsində mühüm rol oynamış şəxslərdən biri, sabiq səhiyyə naziri Oqtay Şirəliyev 75 yaşında vəfat edib.**

Oqtay Kazım oğlu Şirəliyev 1950-ci il avqustun 2-də Bakı şəhərində həkim ailəsində anadan olub. O, orta təhsilini başa vurduqdan sonra 1967-1973-cü illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda (indiki ATU) “Müalicə işi” ixtisası üzrə təhsil alıb. 1974-cü ildə Daxili İşlər Nazirliyinin Hospitalında cərrah kimi fəaliyyətə başlayan O.Şirəliyev 1977-ci ildə Moskva Həkimləri Təkmilləşdirmə İnstitutunun cərrahlıq üzrə kliniki ordinaturasına, 1978-ci ildə isə 1-ci Moskva Tibb İnstitutunun aspiranturasına qəbul olunub.

1992-ci ildə Moskva Onkologiya Mərkəzində doktorluq dissertasiyasını müdafiə edərək, SSRİ Nazirlər Soveti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə tibb elmləri doktoru elmi dərəcəsini alıb. 2003-cü ildə isə AR Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə ona professor elmi adı verilib.

Onun elmi araşdırmaları əsasən hepatologiya - qaraciyər xəstəliklərinin müalicəsi və diaqnostikası üzərində qurulub.

Uzun müddət Səhiyyə Nazirliyində müxtəlif vəzifələrdə çalışan Oqtay Şirəliyev 2005-ci ilin 20 oktyabrında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə səhiyyə naziri təyin olunub. Bu təyinat onun tibb sahəsindəki peşəkarlığına və təşkilatçılıq bacarığına verilən yüksək dəyərin göstəricisidir.

Oqtay müəllim nazir işlədiyi dövrdə səhiyyə sisteminin struktur islahatlarına başlanılıb, Bakı da daxil olmaqla regionlarda müasir standartlara cavab verən onlarla xəstəxana, poliklinika və diaqnostik mərkəz inşa edilib, xəstəxanalar müasir tibbi cihazlarla təmin olunub, diaqnostika və müalicə imkanları xeyli genişlənib.

Eyni zamanda insan resurslarının inkişafı – tibb işçilərinin ixtisas səviyyəsinin artırılması üçün həm ölkə daxilində, həm də xaricdə təlimlər təşkil edilib.

Həmçinin rəqəmsallaşma sahəsində atılan addımlar nəticəsində xəstə məlumatlarının qeydiyyatı, yönləndirilməsi və təqibi daha asan və şəffaf hala gətirilib.

Oqtay Şirəliyev Birləşmiş Millətlər Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), UNICEF və digər beynəlxalq səhiyyə təşkilatları ilə fəal əməkdaşlıq edib. Onun təşəbbüsü ilə ölkəyə bir sıra beynəlxalq proqramlar gətirilib, infeksion xəstəliklərə qarşı mübarizədə yeni metodlar tətbiq olunub.

O.Şirəliyevin səhiyyə naziri kimi fəaliyyəti, müasir Azərbaycan səhiyyəsinin formalaşmasında və sistemli şəkildə inkişaf etməsində mühüm rol oynayıb. Onun dövründə səhiyyənin idarəedilməsi daha kompleks və texnoloji cəhətdən inkişaf etmiş formaya keçib.

Bununla yanaşı, səhiyyədə institusional dəyişikliklər, qanunvericilik islahatları və şəffaflığın artırılması sahəsində də ciddi nailiyyətlərə imza atılıb. Bu gün Azərbaycanda fəaliyyət göstərən bir çox müasir tibb müəssisəsinin təməli məhz onun nazir olduğu dövrdə qoyulub.

Oqtay müəllimin səhiyyə sahəsindəki xidmətləri dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib və o, 12 avqust 2015-ci ildə “Şöhrət” ordeni ilə təltif olunub.

Qeyd edək ki, oktyabrın 4-də Təzəpir məscidində Azərbaycanın sabiq səhiyyə naziri ilə vida mərasimi keçirilib. Mərasimdə Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli başda olmaqla, universitetimizin rəhbərliyi də iştirak edib.

**ATU-nun rəhbərliyi və kollektivi Oqtay Kazım oğlu Şirəliyevin vəfatından kədərləndiyini bildirir, ailəsinə və tibb ictimaiyyətinə dərin hüznlə başsağlığı verir.**

# Startap mentorlarının hazırlanmasına start verilib



**Universitetimizdə startap mentorlarının hazırlanmasına yönəlmiş ASSIP TOT 2025 təlim proqramı başlayıb. Tədbir Akademik Sahibkarlıq Əsaslı Startap və İnkubasiya Proqramı (ASSIP) çərçivəsində həyata keçirilir və universitet müəllimlərinin, tədqiqatçılarının innovasiya bacarıqlarının inkişafını hədəfləyir.**

Təlimlər İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İDDA), Yeni Fikir və BMU Texnoparkının dəstəyi ilə təşkil olunub. Proqram 11-19 oktyabr tarixlərini əhatə edir. ASSIP TOT 2025-in rəsmi açılışında İDDA-nın nümayəndəsi Nigar Davud və Elmi Tədqiqatların İdarə Olunması Departamentin müdiri, professor Eldar Qarayev iştirak ediblər. Professor E.Qarayev çıxışında qeyd edib ki, proqram universitet mühitində elmi ideyaların innovativ həllərə çevrilməsində mühüm rol oynayacaq: “Bu cür təşəbbüslər elm və sahibkarlıq arasında körpü yaradır. Startap mentorlarının hazırlanması akademik innovasiyanın əsas dayaq sütunlarından biridir”. ATU-nun startap proqramlarının koordinatoru, dosent Ayyat Cəfərova proqramın əhəmiyyətini vurğulayaraq bildirib ki, bu təşəbbüs universitetdə innovasiya yönümlü düşüncə tərzinin inkişafına töhfə verəcək: “Bu, tibb universiteti üçün mühüm mərhələdir. Biz elə bir mentor komandası formalaşdırırıq ki, onlar tələbə və gənc tədqiqatçılara elmi ideyaları real texnoloji həllərə çevirməkdə dəstək olacaqlar”. Qeyd edək ki, təlimlər innovasiya sahəsində təcrübəli mütəxəssislər İsa Qasımov, Sərdar Gökpınar və Murat Özlanlar tərəfindən aparılır. Proqramın yekununda Azərbaycan Tibb Universitetində Startup Innovation Lab-ın yaradılması nəzərdə tutulur. Bu laboratoriyada universitet əməkdaşları, doktorantlar və tələbələr diaqnostika, profilaktika və müalicə sahələrində innovativ layihələr üzərində işləyəcək və mentor dəstəyi ilə startaplarını inkişaf etdirəcəklər. ASSIP proqramı universitetlərdə elmi potensialın kommersiyalaşdırılmasına və cəmiyyət üçün faydalı texnoloji həllərin yaradılmasına dəstək məqsədi daşıyır.

**Müasir dövrdə kompüter, telefon və digər rəqəmsal cihazlardan geniş istifadə nəticəsində görmə problemləri təkcə yaşlılarda deyil, gənclər arasında da sürətlə yayılmaqdadır. Uzağı və yaxını görmə zəifliyi, astiqmatizm, göz yorğunluğu artıq çoxlarının gündəlik həyatına təsir edir.**

# Refraktiv əməliyyat hər kəsə uyğun deyil

## Dosent Qurban İsmayılov: Həkim pasiyenti öz övladı qədər düşünməlidir



Eynək və kontakt linza ənənəvi çıxış yolu olsa da, son illərdə bir çox insan daha rahat və qalıcı nəticə əldə etmək üçün refraktiv əməliyyatlara (görmə qüsurlarını aradan qaldıran, eynəkdən xilas edən) üstünlük verir. Lakin mütəxəssislər xəbərdarlıq edir: refraktiv əməliyyat hər kəs üçün uyğun deyil – bir sıra amillərə diqqət yetirmək lazımdır. Əks halda, risklər gözlənildiyindən də ciddi nəticələrə səbəb ola bilər. Bu haqda Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsinin müdiri, dosent Qurban İsmayılovla müsahibəni təqdim edirik:

**- Doktor, bilirik ki, göz əməliyyatlarının müxtəlif növləri var. Hər bir əməliyyatın da gedişi və nəticəsi fərqli ola bilir. Bəs oftalmologiyada çətin və riskli hesab edilən əməliyyatlar hansılardır və bu zaman əsas təhlükələr nələrdir?**

- Son illərdə ən çox müraciət olunan əməliyyatlardan biri refraktiv əməliyyatlardır. Bu əməliyyatlar miopiya (uzağı görməmək), hipermetropiya (yaxını görməmək), astiqmatizm və bəzi hallarda presbiopiya (yaşa bağlı görmə zəifliyi) problemlərinin aradan qaldırılması üçün aparılır. Ən böyük üstünlüyü insanın eynək və linzadan asılılığını minimuma endirməsidir. Adətən 18 yaşdan yuxarı şəxslərə icra olunur. Amma hər kəsə bu əməliyyatı etmək mümkün deyil. Burada çox ciddi tibbi şərtlər mövcuddur. Birinci şərt – buynuz qişanın qalınlığı və sağlamlığı ilə bağlıdır. Belə ki, əgər buynuz qişada çapıq, incəlmə və ya hər hansı xəstəlik varsa, əməliyyat aparılmır. İkinci şərt – göz büllurunun şəffaflığı ilə əlaqədardır. Çünki bəzən uşaqlarda refraktiv anomaliyalar büllurla birgə inkişaf edir və əməliyyatdan sonra büllurun bulanıqlığı arta bilər. Nəhayət üçüncü vacib məsələ – tor qişanın (retinanın) vəziyyətidir. Əgər retinada degenerasiya, nazilmə, ləkələr və ya cırılma halları varsa, bu, əməliyyat zamanı görmənin ciddi şəkildə itirilməsi riskini yarada bilər.

**- Bu risklərin arasında yalnız əməliyyat zamanı aşkarlananı varmı?**

- Əslində hər şey həkimin vicdanından və yanaşmasından asılıdır. Əgər oftalmoloq qarşısındakı insanı sadəcə “əməliyyat olunmalı xəstə” kimi görürsə, bu çox təhlükəlidir. Həkim pasiyenti öz övladı qədər düşünməlidir. Əks halda, hər 10-15 xəstədən birində görmə itkisi, tor qişada qopma, buynuz qişada deşilmə kimi ağır nəticələr ola bilər. Buna görə də əməliyyata qədər tam müayinə mütləqdir. Əgər tor qişada problem aşkarlanarsa, hansısa dəlik və incəlmələr olarsa, əvvəlcə həmin sahələr lazer koaqulyasiyası ilə möhkəmləndirilir. Bu, bir növ göz dibində zəif yerlərin “tikilməsi” kimidir. Yalnız bundan bir ay sonra əsas refraktiv əməliyyat barədə düşünmək mümkündür.

**- Lazerlə möhkəmləndirmə prosesi necə keçirilir? Pasiyent üçün çətinlik yaradırmı?**

- Əsla. Bu, ağrısız və çox qısa – təxminən 15–20 dəqiqəlik prosedurdur. Xəstə elə həmin gün evə gedir, gündəlik həyatına davam edir. Nə iş qabiliyyətinə, nə də həyat tərzinə təsir göstərir. Bu sadəcə risklərin aradan qaldırılması, yəni əsas əməliyyata hazırlıq mərhələsidir.

**- Hazırda xəstələr ən çox hansı şikayətlərlə oftalmoloqlara müraciət edirlər?**

- Müraciətlərin əksəriyyəti əsasən görmə zəifliyi ilə bağlıdır. İnsanlar uzağı və ya yaxını görə bilmədikdə, həmçinin astiqmatizm səbəbindən görüntü təhrif olunduqda bizə müraciət edirlər. Əslində, bu gün görmə qüsurlarının əvvəlkindən daha çox olduğunu deməzdim. Sadəcə, hazırda müasir diaqnostik texnologiyalar geniş yayıldığı üçün bu xəstəliklər daha tez və asan aşkarlanır. Əvvəllər insanlar uzun müddət bu qüsurlarla yaşaya bilirdilər, indi isə erkən mərhələdə aşkarlanır və müalicə təklif olunur.

# ATU-nun geniş nümayəndə heyəti beynəlxalq tədbirdə iştirak edib

**Bu günlərdə Özbəkistanın Səmərqənd şəhərində Səmərqənd Dövlət Tibb Universitetinin ev sahibliyi ilə «Çoxistiqamətli məhkəmə tibbi-ekspertiza və patologiya» mövzusunda V Beynəlxalq elmi-praktik konqres keçirilib.**



Konqresdə Azərbaycan, Tacikistan, Fransa, ABŞ, Xorvatiya, Bosniya və Herseqovina, Serbiya, Başqırdıstan və Qazaxıstandan tanınmış alimlər, mütəxəssislər və elmi ictimaiyyətin nümayəndələri öz təcrübə və biliklərini bölüşüblər.

Konqresin açılış mərasimində «TURAZ» elmi cəmiyyətinin sədri, professor Osman Celbiş, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi-Ekspertiza və Patoloji Anatomiya Birliyinin direktoru, Azərbaycan Tibb Universitetinin Patologiya kafedrasının müdiri, professor Ədalət Həsənov və Səmərqənd Tibb Universitetinin Elmi işlər və innovasiya üzrə prorektoru, dosent Əziz Kubayev iştirakçıları salamlayıblar. Onlar çıxışlarında tədbirin beynəlxalq elmi əməkdaşlığın inkişafında, mütəxəssislərin peşəkar hazırlıq səviyyəsinin artırılmasında, yeni elmi bilik və təcrübələrin mənimsənilməsində əhəmiyyətini xüsusi vurğulayıb, habelə müasir elmi nailiyyətlər əsasında məhkəmə tibbi-ekspertiza və patologiyanın təkmilləşdirilməsi baxımından rolunu qeyd ediblər.

Konqres çərçivəsində məhkəmə tibbi-ekspertiza və patologiya sahəsində aktual problemlər, müasir diaqnostik metodların tətbiqi, süni intellekt texnologiyalarının bu sahəyə inteqrasiyası kimi mühüm məsələlər geniş şəkildə müzakirə olunub, həmçinin yeni tədqiqat nəticələri və elmi yanaşmalar təqdim edilib. Universitetimizin Patologiya, Məhkəmə təbabəti, Sitologiya, embriologiya və histologiya, Daxili xəstəliklər kafedralarının əməkdaşları, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi-Ekspertiza və Patoloji Anatomiya Birliyinin ekspertləri müxtəlif məruzələrlə çıxış ediblər.

Tədbirin ikinci günündə ATU əməkdaşları – kafedranın baş müəllimi, tibb üzrə fəlsəfə doktoru Aygün Əliyarbəyova, baş müəllim Təranə Nəcəfova və baş müəllim, tibb üzrə fəlsəfə doktoru Gülnarə Sadıqova poster və şifahi təqdimatlarla çıxış ediblər.

Ailə təbabəti kafedrasının əməkdaşı, dosent Arzu Bəydəmirova isə “Geriatrik xəstələrdə arterial hipertoniyanın müalicəsində yeni yanaşmaların təhlili’ mövzusunda məruzə oxuyub.

Elmi mübadilə və beynəlxalq əməkdaşlıq baxımından önəm daşıyan bu tədbirdə əməkdaşlarımızın uğurlu iştirakı ATU-nun beynəlxalq elmi platformalarda fəallığının və nüfuzunun göstəricisidir.

# Qazaxıstan universiteti ilə elmi əməkdaşlıq davam edir



Azərbaycan Tibb Universiteti ilə S.D.Asfendiyarov adına Qazaxıstan Milli Tibb Universiteti arasında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində növbəti akademik mobillik proqramı həyata keçirilib. Proqram çərçivəsində Qazaxıstan universitetinin Ümumi immunologiya kafedrasının dosenti Aliya Adilsariyevna Nurmuxanbetova ATU-nun Allerqologiya və immunologiya kafedrasında akademik mobillikdə iştirak edib. Həmin müddətdə allerqologiya və immunologiya fənlərinin sillabusu və tədris planlarının məzmunu müzakirə olunub, kafedra əməkdaşları ilə dəyirmi masa təşkil olunub və mühazirə oxunub. Tədrisin təşkili, praktik məşğələlər, distant tədris platformalarından istifadə və immun sistemlə bağlı xəstəliklərin diaqnostika və müalicə üsulları üzrə fikir mübadiləsi aparılıb. Bundan əlavə, professor-müəllim heyəti, rezidentlər və kafedra müdirləri ilə görüşlər təşkil edilərək elmi əməkdaşlıq və beynəlxalq layihələrdə birgə iştirak imkanları müzakirə olunub. Bu akademik mobillik proqramının kafedrada təşkili, Allerqologiya və immunologiya kafedrasının müdiri, professor Lala Allahverdiyeva və tədris işləri üzrə müdir müavini Nailə Quliyevanın rəhbərliyi ilə uğurla həyata keçirilib.

# Alimlərimizin növbəti elmi uğuru beynəlxalq səviyyədə tanınıb

Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli və həmin kafedranın dosenti Şəhla Məlikovanın müəllifliyi ilə hazırlanan “Factors predicting seizure control and delivery outcomes in women with epilepsy with planned and unplanned pregnancy” adlı elmi məqalə “Revue Neurologique” jurnalında dərc olunub. “Revue Neurologique” jurnalı PubMed, Web of Science, Scopus, Embase və digər beynəlxalq elmi bazalarda indeksləşmiş, nevrologiya sahəsində dünyanın ən nüfuzlu elmi nəşrlərindən biri hesab olunur. Məqalədə epilepsiyadan əziyyət çəkən hamilə qadınlarda hamiləliyin planlı və plansız gedişatında müxtəlif amillərin tutmaların nəzarətdə saxlanılmasına və doğuş nəticələrinə təsiri ətraflı şəkildə araşdırılıb, müqayisəli elmi təhlil aparılıb. Professor A.Məmmədbəyli və dosent Ş.Məlikovanın apardığı tədqiqatların nəticələri son illərdə “Acta Neurologica Belgica”, “Child’s Nervous System”, “Seizure: European Journal of Epilepsy” kimi yüksək impakt faktorlu jurnallarda da dərc olunub. Bu məqalələrə nevrologiya sahəsində dünyanın aparıcı mütəxəssisləri tərəfindən çoxsaylı istinadlar edilib və ümumi sitat sayı 101-ə çatıb. 2024-cü ildə müəlliflərin növbəti elmi işi - “Clinical characteristics, seizure control, and delivery outcomes in pregnant women with focal and generalized epilepsies” adlı məqalə artıq ikinci dəfə “Seizure: European Journal of Epilepsy” jurnalında dərc edilib.

# Avrasiya Pediatriya Zirvəsində ölkəmiz təmsil olunub

Bu günlərdə Türkiyənin Diyarbəkir şəhərində keçirilən I Avrasiya Pediatriya Zirvəsi və V Şərqi Pediatriya Konqresində universitetimizin nümayəndə heyəti də iştirak edib.

Beynəlxalq tədbirdə Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli və Uşaq xəstəlikləri kafedrasının dosenti Nigar Bayramova Azərbaycanı təmsil ediblər.

Konqres Dicle Universitetinin Konqres Mərkəzində baş tutub və 9 ölkədən ümumilikdə 2056 iştirakçını bir araya gətirib.

Tədbirdə ABŞ, Polşa, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Kipr, İraq və digər ölkələrdən pediatriya sahəsində tanınmış mütəxəssislər çıxış ediblər.

Professor A.Məmmədbəyli “Peyvəndlər, nevroloji fəsadlar” mövzusunda elmi məruzə ilə çıxış edərək, peyvəndlərin sinir sisteminə təsirlərinə dair aktual elmi məlumatları iştirakçılarla bölüşüb. Dosent N.Bayramova isə “Peyvəndlə uşaq sağlamlığında körpülər qurmaq” mövzusunda keçirilən panel müzakirəsinə həmsədr olaraq qatılıb.



# Rezidentlərin bacarıqları təkmilləşdirilir



Tədris Cərrahiyyə Klinikasında rezident-həkimlər üçün növbəti elmi-praktik seminar keçirilib. Tədbir I Cərrahi xəstəliklər kafedrasının təşəbbüsü ilə baş tutub. Seminarın açılışında çıxış edən kafedranın müdiri, professor Nuru Bayramov qeyd edib ki, bu cür elmi tədbirlər rezidentlərin nəzəri biliklərinin təkmilləşdirilməsi və praktik bacarıqlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Onun sözlərinə görə, aktual mövzularda keçirilən seminarlar gələcək həkimlərin peşəkar formalaşmasına ciddi töhfə verir. Seminar çərçivəsində kafedranın dosenti Tarverdi Rzayev “ERCP zamanı sfinkterotomiya və stentləməni necə icra edirəm?” mövzusunda təqdimatla çıxış edib. T.Rzayev iştirakçılara ERCP (Endoskopik Retrograd Xolangioqrafiya) proseduru, öd yollarının anatomiyası, sfinkterotomiya və stendlərin yerləşdirilməsi haqqında ətraflı məlumat verib. Tədbirin sonunda məruzəçi mövzu ilə bağlı rezidentlərin suallarını cavablandırıb və praktik nüanslara toxunub.

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Transplantologiya şöbəsində 2016-cı ildən etibarən böyrək nəqli əməliyyatları uğurla həyata keçirilir. Bu günlərdə adıçəkilən şöbənin həkim heyəti tərəfindən növbəti əməliyyat icra olunub.**

# Mürəkkəb böyrək əməliyyatı həyata keçirilib



I Cərrahi xəstəliklər kafedrasının əməkdaşı, klinikanın Transplantologiya şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Anar Namazovun bildirdiyinə görə, adətən iki vena, iki arteriyası olan böyrəklər mürəkkəb əməliyyat hesab olunur. Bu xəstənin də böyrəyi məhz beləymiş. Üstəlik də, böyrəyin arteriyasının diametri 1.5 mm-dən kiçik olduğu üçün əməliyyatın mürəkkəbliyi daha da yüksəlib.

Şöbə müdiri uyğun donor tapılmadığı üçün pasiyentin 58 yaşlı bacısının donor olduğunu qeyd edib: “Müayinələrdən sonra əməliyyat həkim heyətimiz tərəfindən uğurla həyata keçirildi. Hazırda hər iki arteriya işlək vəziyyətdədir və böyrək normal şəkildə fəaliyyət göstərir. Klinikamıza daxil olanda xəstənin kreatini 8.7 idisə, hazırda bu göstərici 1.1-ə endirilib. Xəstə özünü yaxşı hiss edir, nəzarətimiz altındadır. Müraciət edən xəstələrin normal həyata qayıtması bizim üçün həmişə ən böyük mükafatdır”.

# Universitetimiz beynəlxalq forumda təmsil olunub

**Əməkdaşlarımız Özbəkistanın Səmərqənd şəhərində keçirilən “Tibb və Təhsil: Universitetlər və cəmiyyətlər arasında birləşmə” adlı beynəlxalq elmi-praktiki forumda iştirak ediblər.**

Forumda I Mamalıq və ginekologiya kafedrasının professoru Nigar Kamilova “Genital orqanların iltihabi xəstəliklərinin diaqnostikasında yeni təklif olunmuş vaginal güzgülərin təqdimatı” mövzusunda məruzə ilə çıxış edib. Onun təqdim etdiyi və artıq patentləşdirilmiş yeni quruluşlu vaginal güzgü modeli innovativ yanaşma baxımından forum iştirakçılarının böyük marağına səbəb olub.

Həmin kafedranın dosenti Xatirə Mirzəyeva isə “Keysəriyyə əməliyyatından sonrakı çapığın diaqnostik kompleks qiymətləndirilməsi və sonrakı doğuşların təbii yolla aparılması” mövzusunda təqdimatında çapıq toxumasının düzgün qiymətləndirilməsi və bu hallarda vaginal doğuşun təhlükəsiz şəkildə mümkünlüyünə toxunub. Onun çıxışı da iştirakçılar tərəfindən maraqla qarşılanıb.



Forum tibb sahəsində beynəlxalq təcrübə mübadiləsi və universitetlərarası əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətli platforma kimi dəyərləndirilib.




# Əməkdaşlarımız beynəlxalq mikroskopiya konqresində iştirak ediblər

**Bu yaxınlarda əməkdaşlarımız 27-ci Beynəlxalq Elektron Mikroskopiya (EMK 2025) və 2-ci Beynəlxalq Mikroskopiya və Spektroskopiya Konqresində (MSC 2025) iştirak ediblər.**

Patoloji anatomiya kafedrasının dosenti, tibb elmləri doktoru Samirə Yaqubova, Sitologiya, embriologiya və histologiya kafedrasının baş müəllimləri, tibb üzrə fəlsəfə doktoru Aygün Əliyarbəyova və Təranə Nəcəfova rəsmi dəvətlə tədbirə qatılıblar.

Universitetimizin əməkdaşları histologiya və patologiya sahəsində apardıqları tədqiqatların nəticələrini konqres iştirakçılarına həm şifahi, həm də poster təqdimatlarla çatdırıblar. Onların elmi çıxışları iştirakçılar tərəfindən maraqla qarşılanaraq, konqresin təşkilat komitəsi tərəfindən yüksək qiymətləndirilib və müvafiq sertifikatlarla mükafatlandırılıb.

Qeyd edək ki, Türk Elektron Mikroskopiya Dərnəyinin təşəbbüsü və professor Türkan Erbenginin rəhbərliyi ilə hər il ənənəvi olaraq keçirilən bu mötəbər tədbir bu il İstanbul Acıbadem Mehmet Ali Aydınlar Universiteti Tibb fakültəsinin ev sahibliyi ilə baş tutub.

Konqresdə 200-ə yaxın tezis qəbul olunmasına baxmayaraq, iştirakçı sayı 500-dən artıq olub. Konqres çərçivəsində 3 plenar təqdimat, 57 dəvətli məruzə, 110 şifahi təqdimat, 90-a yaxın poster təqdimatı, 21 paralel elmi sessiya və 10-dan çox texniki seminar təşkil olunub. Həmçinin müasir mikroskopik texnologiyalara həsr olunmuş 4 ixtisaslaşdırılmış təlim kursu da keçirilib.

# Yeni nəşrlər



Azərbaycan Tibb Universitetinin Elmi Tədqiqatların İdarə Olunması Departamenti 2024-cü il üzrə ATU-nun elmimetrik göstəricilərinə dair vəsait hazırlayıb. Nəşrdə ötən il kafedralardan Departamentə təqdim olunan elmi hesabatlar əsasında infoqrafik məlumatlar dərc olunub və universitetimizin beynəlxalq reytinqlərdə yer almasına xidmət edən elmi göstəricilərə xüsusi önəm verilib.

Bu məlumatların hazırlanmasında Web of Science və Scopus məlumat bazalarından istifadə edilib. Kitabda universitetin ayrı-ayrı kafedralarının elmi fəaliyyətinin qiymətləndirilməsi aparılıb və əldə olunan nəticələr ümumilikdə universitetin elmi potensialını və fəaliyyətini əks etdirib. Hazırlanmış infoqrafik hesabat Azərbaycan Tibb Universitetinin elmi fəaliyyətinin şəffaflığını təmin etmək, elmi göstəriciləri beynəlxalq standartlara uyğun izləmək və gələcək tədqiqat istiqamətlərinin planlaşdırılmasına dəstək vermək məqsədi daşıyır.

***

Elmi Araşdırmalar Mərkəzinin alimləri tərəfindən aparılan tədqiqatların nəticələri rus dilində tərtib edilmiş yeni elmi nəşrdə öz əksini tapıb.

“Platin (II) və palladiumun (II) biokoordinasiyalı birləşmələri tibbi kimyada” adlı monoqrafiyanın müəllifləri Xudayar Həsənov, Orxan İsayev, Əsmət Əzizova və Şimid Qasımovdur. Nəşr Azərbaycanda tibbi kimya sahəsinə həsr olunmuş ilk monoqrafiya olduğundan, elmi baxımdan əhəmiyyət kəsb edir. Əsər metal tərkibli bioloji fəal maddələrin alınması, onların fiziki-kimyəvi xüsusiyyətlərinin öyrənilməsi və tibbi aspektlərinin tədqiqinə həsr olunub. Müəlliflər tərəfindən aparılan ilkin tədqiqatlar göstərir ki, alınan birləşmələr gələcəkdə geniş elmi sınaqlardan sonra bədxassəli şişlərə qarşı, iltihab əleyhinə, radioprotektor və antioksidant vasitələr kimi tətbiq oluna bilər. Bu həm tibbi kimya, həm də klinik tədqiqatlar sahəsində yeni istiqamətlərin inkişafına təkan verəcək.

Monoqrafiyanın elmi redaktoru AMEA-nın akademiki Əjdər Məcidov, rəyçiləri isə AMEA-nın müxbir üzvü Məhəmməd Babanlı, ATU-nun Əczaçılıq toksikologiyası və kimya kafedrasının müdiri, professor Eldar Qarayev və Biokimya kafedrasının dosenti Arzu Dadaşovadır.

Yeni nəşr yalnız elmi dairələr üçün deyil, həm də tibbi kimya, əczaçılıq, biotexnologiya və tibb sahələrində çalışan mütəxəssislər üçün nəzərdə tutulub.







***

Bakı Ekspo Mərkəzində professor Əzizağa Talışinski və uzman doktor Aydın Talışinskinin tələbələr üçün nəşr etdikləri “Otorinolarinqologiya” dərsliyinin təqdimatı keçirilib.

Təqdimatın moderatoru A.Talışinski müxtəlif dillərdə nəşr olunmuş otorinolarinqologiya dərsliklərinin tarixi və müqayisəli təhlili barədə məlumat verərək, Avropa, Amerika, Rusiya, Osmanlı və Türkiyə Cümhuriyyətindəki LOR ədəbiyyatını təhlil edib. O, həmçinin 1934-cü ildə latın əlifbası ilə Azərbaycan dilində, Azərbaycan Tibb Universitetinin otorinolarinqoloqu tərəfindən hazırlanmış dərsliyin orijinal nüsxəsini təqdim edib.

Bildirilib ki, dərslikdə yuxarı tənəffüs yolları və qulaq xəstəliklərinin etiologiyası, diaqnostikası və müalicəsinə dair fundamental biliklər, endonazal mikroendoskopik diaqnostika və cərrahiyyə yenilikləri, eləcə də müasir və əsaslandırılmış diaqnostik və müalicə üsulları geniş şəkildə diqqətə çatdırılır. Kitab tibb fakültəsinin tələbələri üçün təhsil proqramına tam uyğun olmaqla yanaşı, rezidentlər, doktorantlar və praktik həkimlər üçün də faydalıdır.

Dərslik 2024-cü ildə ATU-nun “Təbib” nəşriyyatında 684 səhifə, 442 illüstrasiya ilə nəşr olunub, terminoloji lüğət və kompakt disk ilə təchiz edilib.

***

Tibb və sağlamlıq elmləri təhsili kafedrası yay tətili zamanı fəaliyyətini davam etdirərək yeni metodik vəsaitlər ərsəyə gətirib.

"Çoxseçimli testlərin hazırlanması, dizaynı və analizi", "Pedaqoji peşəkarlığın inkişafı təliminin təşkili haqqında metodik tövsiyə", "Методические рекомендации по эффективной обратной связи в медицине" (Tibbdə effektiv rəyin verilməsi üçün metodik tövsiyələr) adlı vəsaitlər qiymətləndirmə-dəyərləndirmə proseslərinin daha səmərəli, məqsədyönlü və elmi əsaslı aparılmasına mühüm töhfə verəcək.




Kafedranın məqsədi tələbələrin və professor-müəllim heyətinin akademik fəaliyyətini dəstəkləmək, tədrisin keyfiyyətini artırmaq və elmi inkişafı təşviq etməkdir.

# Şəhidlərə həsr olunmuş kitabın təqdimatı keçirilib



Bu günlərdə “Badamdar hotel and residences”də türkiyəli və azərbaycanlı yazarların birgə ərsəyə gətirdiyi “Bir Şəhid, Bir Hekayə, Bir Şeir” kitabının 4-cü cildinin təqdimatı keçirilib.

Türkiyəli yazar Harun Yıldırımın ideyası ilə işıq üzü görən kitab Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizə həsr edilib. Kitabda 26 azərbaycanlı və 33 türk yazarın 62 şəhid haqqında qələmə aldıqları həyat hekayələri və onlara həsr edilmiş şeirlər öz əksini tapıb.

Tədbiri Azərbaycan Tibb Universitetinin məzunları olmuş Namiq və İlhamə Müslümovalar açıb. Bildiriblər ki, 5 il öncə Harun Yıldırım tərəfindən başladılan bu layihənin ilk 3 cildi Türkiyə, 4-cü cildi isə Azərbaycan şəhidlərinə həsr edilib.

Tədbirdə söz adamları ilə yanaşı, adı kitabda yer alan şəhidlərin ailə üzvləri, Azərbaycan Yazıçılar Birliyinin, Müdafiə Nazirliyinin və Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyinin nümayəndələri iştirak edib.

Qeyd edək ki, kitabda ATU-nun Normal fiziologiya kafedrasının baş müəllimi Mehri Seyidbəylinin 20 sentyabr 2023-cü ildə antiterror əməliyyatları zamanı Ağdərə döyüşlərində şəhid olmuş gizir Vaqif Rəcəbovun xatirəsinə həsr etdiyi “Dastan yazan qəhrəman” hekayəsi və “Vaqif andı” adlı şeiri dərc olunub.

Tədbirdə onun “Həkim şəhidlər” şeirinə bəstəkar Fərahim Sadıq tərəfindən bəstələnən mahnı səsləndirilib. Bu mahnı iştirakçılara həkim kimi yaşayıb, şəhid kimi əbədiyyətə qovuşan qəhrəmanlarımızın xatirəsinə musiqi dili ilə qurulan abidə kimi təqdim olunub.

# Əməkdaşlarımızın tədqiqat işi geniş müzakirələrə səbəb olub

Sitologiya, embriologiya və histologiya kafedrasının əməkdaşları – baş müəllim, tibb üzrə fəlsəfə doktoru Nigar Quliyeva, baş müəllim Şəhla Hüseynova, assistent Leyla Yıldırım və assistent İlahə Sadiqi Almaniyanın Karlsrue şəhərində keçirilmiş “Microscopy Conference 2025” (MC 2025) adlı nüfuzlu beynəlxalq tədbirdə iştirak ediblər. MC 2025 konfransı Almaniya Elektron Mikroskopiya Cəmiyyəti, İsveçrə Optika və Mikroskopiya Cəmiyyəti, həmçinin Avstriya Elektron Mikroskopiya Cəmiyyətinin birgə təşkilatçılığı ilə baş tutub. Konfransa dünyanın müxtəlif ölkələrindən tanınmış alimlər, tədqiqatçılar və mütəxəssislər qatılıb.

Nümayəndələri konfrans çərçivəsində “Comparative study of tannic acid diffusion as a micromolecular tracer in the meninges of the spinal cord and peripheral nerve sheaths – An electron microscopic investigation” mövzusunda poster məruzə ilə çıxış ediblər. Məruzənin müəllifləri sırasında ATU əməkdaşları ilə yanaşı, tədqiqatçılar E.Qasımov və S.İsrafilova da yer alıblar.

Təqdim olunan tədqiqat işi iştirakçılar tərəfindən maraqla qarşılanaraq geniş müzakirələrə səbəb olub. Bu uğurlu təqdimat ATU-nun elmi potensialının və beynəlxalq əməkdaşlıq imkanlarının bir daha nümayişi kimi qiymətləndirilib.



**Universitetimizin beynəlxalq komandası - “Research Without Borders” (sərhədsiz tədqiqat) “Bickerstaff Encephalitis in a Pediatric Patient” adlı elmi işi ilə dünyanın aparıcı uşaq nevrologiyası təşkilatlarından biri olan Child Neurology Society (CNS) tərəfindən keçirilən 54-cü CNS Annual Meeting adlı beynəlxalq konfransda iştirak edib.**

# Komandamız ABŞ-da uğur qazanıb



Tədbir ABŞ-ın Şimali Karolina ştatında baş tutub. Konfransda təqdim olunan case report xəstəliyin erkən mərhələdə diaqnostikası və müalicəsində yeni, daha sürətli və az xərcli yanaşmanın tətbiqini əhatə edir. Layihə üzərində Azərbaycan Tibb Universitetinin Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultan, eləcə də əcnəbi tələbələr - Meysam Ghanbari Saray (İran, IV kurs), Minhaalu Hassan Ali (Maldiv adaları, III kurs), Nicolle Gonzalez (Kolumbiya, III kurs) və Saif Mahran (Misir, III kurs) birgə çalışıblar.

Tədqiqat həm elmi yenilik, həm də praktik tibdə tətbiq imkanları baxımından konfrans iştirakçılarının böyük marağına səbəb olub.

Məlumata görə, bu elmi işin yaxın zamanda yüksək impakt faktorlu beynəlxalq elmi jurnalda dərc edilməsi planlaşdırılır.

# Yeni mövsümə “Dostluq turniri” ilə start verilib



Tələbə Həmkarlar İttifaqı Komitəsinin dəstəyi və İntellektual Oyunlar Klubunun təşkilatçılığı ilə tələbələr arasında yeni mövsümün ilk intellektual yarışı – “Dostluq turniri” keçirilib. Kluba yeni qoşulan tələbələr öz bilik və bacarıqlarını nümayiş etdiriblər.

Yarışdan əvvəl klubun sədri Aydın Cəfərov iştirakçılara yeni semestrdə uğurlar arzulayıb, intellektual oyunların qaydaları barədə geniş məlumat verib.

Gərgin və maraqlı mübarizədən sonra “Neurona” komandası 14 xalla I yerə, “Kodon 64” komandası 13 xalla II yerə, “ForFun” komandası isə 12 xalla III yerə layiq görülüb. Qaliblərə hədiyyələr və medallar təqdim olunub.

# “Biz necə qərar veririk? – qərarsızlıqdan çıxış yolları” adlı təlim baş tutub

Elmi Tədqiqatların İdarə Olunması Departamentinin təşkilatçılığı ilə “Biz necə qərar veririk? – Qərarsızlıqdan çıxış yolları” mövzusunda maarifləndirici təlim keçirilib.

Təlimin spikeri – layihə idarəetmə üzrə mütəxəssis, ICF sertifikatlı kouç İlahə Zeynallı qərarvermə prosesində tələbələrə kömək edəcək faydalı bilik və praktik metodlarla çıxış edib: “Dünyada insan sayı qədər fərqli qərarvermə üsulları mövcuddur. Əsas məqsəd – bizi qərar verməyə təşviq edən və ya bu prosesdə mane olan amilləri tanımaq, öz qərarvermə stilimizi formalaşdırmaq və “kölgə tərəflərimizi” zərərsizləşdirməkdir”.

Spiker qeyd edib ki, insanların çoxu bəzən başqalarının “qərarsızsan”, “gecikirsən” kimi etiketlərinə görə psixoloji təzyiq hiss edir. Halbuki bu cür vəziyyətlərdə insan öz xüsusiyyətlərinin fərqində olarsa, bu tənqidlər artıq onu sarsıtmır, əksinə, inkişaf üçün stimul rolunu oynayır.

Təlim zamanı iştirakçılarla interaktiv müzakirələr aparılıb, onların şəxsi təcrübələrinə əsaslanan nümunələr dinlənilib. İlahə Zeynallı qərarvermə prosesində neyro-linqvistik proqramlaşdırma (NLP) metodlarından istifadə edərək öyrənmə mərhələlərini izah edib. O vurğulayıb ki, insan əvvəlcə qərarsızlığının fərqinə varır, daha sonra bu vəziyyəti dəyişdirmək üçün öyrənməyə və təcrübə toplamağa başlayır.

Təlimdə “Eisenhower matrisi” əsasında qərarların vaciblik və təcillik dərəcəsinə görə prioritetləşdirilməsi, eləcə də “Altı şapka metodu” üzrə qərarvermədə fərqli düşüncə aspektlərinin – faktlar, emosiyalar, tənqidi yanaşma, müsbət nəticələr, kreativ təkliflər və nəzarət mexanizmlərinin rolu barədə ətraflı məlumat verilib.

İştirakçılarla birgə aparılan diskussiya zamanı tələbələr gündəlik həyatlarında verdikləri qərarlardan, bəzən isə qərarsız qaldıqları məqamlardan danışıblar. Onlar kouçun rəhbərliyi ilə praktik tapşırıqlar yerinə yetirərək fərdi qərarvermə bacarıqlarını təkmilləşdiriblər.

Təlimin sonunda İ.Zeynallı bildirib ki, qərarvermə bacarığı həyatın bütün sahələrində uğurun əsas açarıdır. Çünki bir fərd olaraq güclü və zəif tərəflərini tanıyan insan daha inamlı, məqsədyönlü və balanslı qərarlar qəbul edə bilər.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların dosentləri:**

- III Cərrahi xəstəliklər kafedrası - 1 yer
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- II Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,25 vahid)
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların assistentləri:**

- Əczaçılıq toksikologiyası və kimya kafedrası - 1 yer (0,5 vahid)
- Travmatologiya və ortopediya kafedrası - 1 yer (0,25 vahid)
- Uşaq cərrahlığı kafedrası - 1 yer (0,5 vahid)
- Allerqologiya və immunologiya kafedrası - 1 yer (0,5 vahid)
- Sitologiya, embriologiya və histologiya kafedrası - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi, 14**
**Telefon: 597-10-08**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. “Pedaqoji peşəkarlığın inkişafı” mövzusunda təlimlərdə iştirakı barədə sertifikatın surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarış təqdim etməlidir.**

### Allah rəhmət eləsin!

İnsan anatomiyası və tibbi terminologiya, Fizioterapiya və tibbi reabilitasiya kafedralarının əməkdaşları Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyliyə əzizi, professor

**Oqtay Şirəliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

II Uşaq xəstəlikləri kafedrasının əməkdaşları kafedranın dosenti Aynur Poluxovaya anası

**Ayna xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0017
Sayı 800